# ŞUŞA ŞƏHƏRİNİN HİDROMETEOROLOJİ ŞƏRAİTİ

**Solmaz Rzayeva[1], Fərqanə Dadaşova[1], Vəfa Məmmədova[1], Rəşad Verdiyev[2]**

[1] *Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidməti*
[2] *Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Akademik Həsən Əliyev adına Coğrafiya İnstitutu,*
*vafa_mamedova@mail.ru*

Şuşa rayonu ərazisində əsasən Yura və Təbaşir çöküntüləri yayılmışdır. Həmçinin müxtəlif növ tikinti materialları yataqları və mineral su bulaqları (Turşsu, Şirlan) vardır. Torpaqları qəhvəyi və qonur dağ-meşə, çimli dağ-çəmən tiplidir. Yüksək dağlıq sahələr subalp və alp çəmənlikləri ilə örtülüdür. Əsas çayları Qarqarçayın qolları olan Zarıslı və Xəlfəli çaylarıdır. Ərazi əsasən qışı quraq keçən mülayim isti, yüksək dağlıq zonada isə qışı quraq keçən soyuq iqlimlə səciyyələnir.

Şuşada 1961-1991-ci dövr ərzində havanın orta çoxillik temperaturu normaya bərabər olmuşdur. Bu dövr ərzində 1961, 1962, 1963, 1965, 1966, 1975, 1989-cu illərdə orta illik temperaturlar normadan nisbətən çox, 1966-ci ildə isə normadan +1.7$^0$C çox olmuşdur. Normadan ən aşağı orta illik temperatur 1969-cu ildə qeydə alınmışdır (1.2$^0$C). 1976-ci il il istisna olmaqla 1967-ci ildən 1984-cü ilə kimi orta illik temperaturlar normadan aşağı, 1986, 1987, 1990, 1991-ci illərdə normaya bərabər olmuşdur. 1989-cu ildə isə normadan +0.6 $^0$C çox olmuşdur. Havanın temperaturunu aylarla müqayisə etdikdə çoxillik dövr ərzində yanvarda (0.1$^0$C), iyun ayında normdan (0.4$^0$C) çox, digər aylarda təxminən nomaya bərabər olmuşdur. Maksimal temperatur 1984-cü ilin iyul ayında (+38.5$^0$C) və 1987-ci ilin avqust ayında (+37.2$^0$C), minimum temperatur 1972-ci ilin yanvar, fevral aylarında (-18 $^0$C) qeydə alınmışdır.

Yağntılar normadan 31.6 mm fərqlə az düşmüşdür. Yağıntıların miqdarı aylar üzrə norma ilə müqayisədə normadan nisbətən çox yağıntı mart, aprel aylarında, ən az yağıntı may-noyabr aylarında qeydə alınmışdır. 1961, 1970, 1989-cu illərdə müvafiq olaraq -184 mm, -265 mm, 221.6 mm fərqlə normadan az yağıntı düşmüşdür. 1963, 1972-ci illərdə isə müvafiq olaraq 417,6 mm, 228.3 mm fərqlə normadan çox yağıntı düşmüşdür. Maksimal küləyin sürəti bu dövrdə yalnız 1973-cü ilin noyabr ayında müşahidə edilmişdir 36 m/san. 34 m/san 1987-ci ilin yanvar və 1987-ci ilin dekabr (30 m/san) aylarında qeydə alınmışdır.

İşğaldan sonra ETSN Milli Hidrometeorologiya Xidməti Şuşa, Kəlbəcər, Ağdam, Zəngilan və Füzuli rayonlarında meteoroloji stansiyanın quraşdırılması ilə bağlı tədbirlər görür, su ehtiyatlarının qiymətləndirilməsi məqsədilə hidroloji avtomat stansiyanın qurulması işləri aparılır. Milli Hidrometeoroloji Xidmətin Qarabağ ərazinin hidrometeoroloji şəraiti haqqında məlumatları Şuşa və ətraf ərazilərin kənd təsərrüfatının inkişafı üçün əhəymiyyət kəsb edəcəkdir ki, bu da gələcəkdə iqlim dəyişmələrinin təsirini nəzərə almaqla ərzaq çatışmalığının qarşısının alınmasına kömək etmiş olacaqdır.